# Vətənin qüruru olan oğullardan biri



**Yalnız xatirə deyil. Yalnız həsrət, nisgil, göz yaşı, ağı, dərd deyil. Yalnız qürur deyil. Telman burda zamanın özüdür. Bu evdə hər gün onunla başlayır, onunla bitir. Anasının hər gün qürub edən Günəşinin, qaranlıq gecələrinin və hər açılan sabahının bircə adı var: Telman...**





### Anasının tək ümidi...

"O, mənim dünyam idi", - anası Səmayə Əliyeva baxışlarını otaqda dolandırıb deyir. Onunla birlikdə biz də otağa göz gəzdiririk. Divarlar başdan-başa şəhid baş leytenant Telman Ələkbərovun fotoşəkilləridir. Və, əslində, onun iyirmi doqquz illik ömrünü anlatmağa yetir.

Şəkillərdən biri - Telmanın üç aylıq görüntüsü diqqətimizi çəkir. Oğlunun həmin şəklinə baxanda Səmayə ananın üzü gülür. Bir anda çəkdiyi bütün acılar, dərdlərin ən ağırı - bala dərdi yadından çıxır elə bil. Telmanın məsum baxışlarındakı ciddiyyətə nəzər yetirib: "Balam elə uşaqlıqdan ağıllı, kamallı idi", - deyir.



Valideynləri onun ömrünün bu çağında - üçaylıq ikən ayrılıblar. Telman ailənin tək uşağı kimi anasının himayəsində böyüyüb.

Atası da, anası da bakılıdırlar. Telman Ələkbərov da Bakı şəhərində 1991-ci il martın 30-da dünyaya gəlib. Anası onu bolluq, firavanlıq içində böyüdə bilməyib. Telmanın uşaqlığı ölkənin çətin vaxtlarına düşüb. Keçid dövrü idi. Respublikamızda iqtisadi tənəzzül, böhran hökm sürürdü. Bir tərəfdən də işğalçı ermənilər Qarabağda, Şərqi Zəngəzurda yaratdıqları münaqişə ocağını daha da alovlandırmışdılar. Birinci Qarabağ müharibəsi başlamışdı. Qəsbkarlar Qarabağda, Şərqi Zəngəzurda soydaşlarımıza divan tutur, dinc insanlarımızı, əsgər və zabitlərimizi şəhid edirdilər.

Torpaqlarımızın iyirmi faizi Ermənistanın işğalına həmin illərdə məruz qaldı, Qarabağda və Şərqi Zəngəzurda işğalçıların zülmlərindən canını götürüb qaça bilənlər ayrı-ayrı bölgələrimizə pənah gətirdilər. Səmayə xanım xatırlayır: "Ölkəmizin hər yerində olduğu kimi, Bakıda da iqtisadi vəziyyət çox ağır idi. Mən dərzi işləyirdim. Dərziliklə uşağımla birtəhər dolanırdıq. Birotaqlı, darısqal, heç bir şəraiti olmayan evdə ana-bala baş-başa verib yaşayırdıq".

Anası danışır ki, Telman uşaqlıqda nadinc idi. Böyüdükcə dəyişirdi... Sakit, ciddi, təmkinli oğul oldu. Məni heç incitmədi. "Ağlı kəsəndən anasının onun yolunda çəkdiyi əziyyərləri gördü. Kiçik yaşlarından anasına həyan olmaq istədi..."

### Arzularla dolu illər...

Telman Ələkbərov 1997-ci ildə məktəbə gedib. 2003-cü ilədək Sabunçu rayonu 215 nömrəli tam orta məktəbdə təhsil alıb. Anası deyir ki, Telman körpəlikdən səxavətli uşaq idi, tikəsini bölərdi, çox mehriban idi: "Məktəbdə yoldaşları ilə, dostları ilə, qonşularla çox mehriban idi. Mərdlik, sədaqət onun sanki boyuna biçilmişdi. Darda olanlara əl uzadırdı. Uşaqlıqdan gücü çatdığı qədər hər kəsə kömək etməyə çalışırdı".

Telman Ələkbərov 2003-2008-ci illərdə orta təhsilini Azərbaycan Respublikası Olimpiya İdman Liseyində davam etdirib. 2009-cu ildə həqiqi hərbi xidmətə çağırılıb. Hərbi xidmətini başa vurub geri dönüb. Anası o illəri yada salır: "Telman hərbi xidmətdə də nümunəvi əsgər oldu. Komandirləri ondan çox razılıq edirdilər. Əsgərlikdən qayıtdıqdan sonra hər adamda ali məktəbə hazırlaşmağa həvəs olmur. Telman isə qarşısına məqsəd qoymuşdu. Həm işləyirdi, həm də ali məktəbə hazırlaşırdı. Arzusuna çatdı, tələbə adını qazandı".

Telman 2013-2018-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ali təhsil alıb. Tələbəlik illərində də işləməyə davam edib. O, 2012-2019-cu illərdə "Azərişıq" ASC-də, sonra "Azərsu" ASC-də mühafizə xidmətində çalışıb.

### Vətənə xidmət naminə verilən qərar

Telman Ələkbərov 2019-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin Ehtiyat Zabit hazırlığı kursunda motoatıcı taqım komandiri ixtisası üzrə təlim keçib. Kursu bitirdikdən sonra leytenant rütbəsində taqım komandiri kimi Ağdamda yerləşən "N" saylı hərbi hissədə xidmətə başlayıb. O, xidməti dövründə vəzifə borcunu layiqincə yerinə yetirdiyinə görə, hərbi hissə komandiri tərəfindən dəfələrlə fəxri fərmanlarla təltif olunub. 2020-ci ildə Telman Ələkbərova baş leytenant rütbəsi verilib.

Həmin günlərdə boylu-buxunlu, yaraşıqlı oğluna baxdıqca sevinən Səmayə ana onun toyunu görmək, nəvə yiyəsi olmaq arzusu ilə yaşayırdı. Ağır təbiətli oğlundan sevdiyi qızın olub-olmadığını soruşa bilmirdi. Amma bilirdi ki, ailə qurmaq Telmanın da arzusudur. Oğlu: "Hərbi xidmətdən qayıdım sonra..." - deyirdi.

- General Polad Həşimov şəhid olmuşdu, - anası danışır. - Telman mənə zəng vurdu. Hiss etdim ki, səsi çox kədərli, həyəcanlıdır, gərgindir. Polad Həşimovun şəhid olması ona çox ağır təsir etmişdi.

2020-ci il avqustun 12-də Telman Ələkbərov müqaviləsini uzadaraq "Hərbi xidmət keçmə haqqında" Əsasnamənin 9-cu maddəsinə müvafiq olaraq Azərbaycan Ordusunun zabit heyətinə keçib.

Əsgərlərinə təkcə komandir yox, həm də böyük qardaş olub. Anası bildirir ki, o qədər öyrəşmişdi, elə çox istəyirdi ki, evə gələndə də fikri onların yanında qalırdı: "Evə çatan kimi hərbi hissəyə zəng edirdi, əsgərlərini xəbər alırdı, deyirdi ki, uşaqlardan muğayat olun. O, gələnədək mən Telmanın əsgərləri üçün ərzaq, şirniyyat alıb yığırdım. Gedəndə aparırdı. Özü də məvacibinin çox hissəsini onlara xərcləyirdi".

### "Anamdan muğayat olun"

Axırıncı dəfə evlərinə 2020-ci il avqustun 30-da gəlib. Anası onun son gedişindən danışır: "Həmişə gedəndə istəyirdim ki, onun ardınca su atım. Telman pərdəni çəkirdi, mənə deyirdi ki, dalımca gəlmə. Sentyabrın 5-də gedəndə isə heç nə demədi. Mən də əlimdə su dolu qabla yavaşca çıxdım. Maşına tərəf gedə-gedə də mənə baxırdı. Gördüyüm son baxışları oldu... Qardaşımgil də bizdəydilər. Telman qardaşımla birlikdə maşına mindi. Mən su atanda maşın tərpəndi. Qardaşım deyir ki, maşın tini burulanadək Telman dönüb arxaya, sənə baxdı. Ayrılanda isə dayısına deyib ki, anamdan muğayat olun".



Hələ müharibə başlamamışdı. Telman, əlbəttə ki, anasına Ermənistan silahlı qüvvələrinin törətdikləri təxribalar səbəbindən vəziyyətin gərgin olduğunu söyləmirdi. Hər telefon söhbətlərində elə danışırdı ki, anası komandir oğlundan da, başqa zabitlərimizdən, əsgərlərimizdən də arxayın olsun.

Səmayə Əliyeva deyir: "Telman məni narahat etməyə qıymırdı. Deyirdi ki, hər şey yaxşıdır. Mən də arxayın idim. Sentyabrın 27-də Vətən müharibəsinin başlandığını televiziyada yayımlanan xəbərlərdən eşitdim. Bütün günü gözlərim televiziya ekranlarında qalırdı. Həyacanla veriləcək xəbərləri gözləyirdim. Bir də qulağım səsdə idi. Gözləyirdim ki, oğlum zəng edəcək. İmkanı çatdığı, bacardığı qədər məni intizarda qoymurdu. Demək olar ki, hər gün danışırdıq. Ancaq söhbətimiz çox qısa olurdu. Telman mənə demişdi ki, burda elektrik enerjisi problemi var, çalışıram ki, telefonumun enerjisi bitməsin, ona görə az danışıram".



Oktyabrın 3-də yenə zəng gəlib. Amma bu dəfə Telman söhbəti başa vurmağa tələsməyib. Anası onu tələsdirib: "Mən narahat oldum. Dedim ki, ay Telman, telefonunun enerjisi bitər, sonra danışa bilmərik. Demə, balamın ürəyinə damıbmış ki, son söhbətimizdir".

Azərbaycan Ordusunun baş leytenantı Telman Ələkbərov 2020-ci ildə Vətən müharibəsində Ermənistan işğalı altında olan ərazilərimizin azad edilməsi uğrunda şiddətli döyüşlərdə rəşadət göstərən igid zabitlərimizdən biri idi. O, oktyabrın 7-də Ağdam rayonu istiqamətində gedən döyüşdə əsgərlərinin həyatını xilas edib. Özü isə qəhrəmancasına şəhid olub.

### Qızılgüllərin dilində danışan sevgi...

Səmayə ana həyatının məcrasını dəyişən o gündən göz yaşları içində danışır: "İştaham kəsilmişdi. Boğazımdan bir tikə belə keçmirdi. Bütün fikrim cəbhədə idi. Ordan gələn xəbərləri eşitmək üçün televiziya verilişlərini izləyirdim. Demə, Telman artıq şəhid olubmuş. Başsağlığı vermək üçün gələnlərin qarşısını qonşularımız kəsib deyirmişlər ki, içəri girməyin, anası hələ xəbərsizdir. Hamı mənim balamı ağlayırmış. Mən isə onun zəngini gözləyirdim. Qohumlarımız gəlirdilər. Öz aralarında pıçıldaşırdılar. Məni görən kimi susurdular. Bilmirdim ki, gizlincə gözlərinin yaşını silirdilər. Soruşurdum ki, sizə nə olub? Niyə beləsiz? Telmandan xəbər var. Cavab verirdilər ki, yox. Ancaq nə qədər gizlədə bilərdilər ki?!"

Şəhid Telmanın cənazəsi oktyabrın 12-də II Fəxri xiyabanda torpağa tapşırılıb. Göstərdiyi şücaətə görə, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, baş leytenant Telman Ələkbərov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Ağdamın azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları, III dərəcəli "Rəşadət" ordeni ilə təltif edilib. Azərbaycan Dövlət İdman Akademiyasında adına həm fəxri təqaüd təsis olunub və həm də auditoriya verilib.

Anası susur. Yəqin yenə Telmanla keçən illəri sıralanır gözlərində. Ağır-ağır danışır: "Bu evin aman-zaman, tək övladıydı. Çox çətinliklərlə, zülmlərlə boya-başa çatdırdım onu. Böyüdü, həmişə mənim başımı uca edən övlad oldu. Ciddi oğlan idi, yersiz gülməz, yersiz danışmazdı. Telman dinləməyi sevirdi. Diqqətlə qulaq asırdı, bir kəlmə, amma yerində olan söz deyirdi. İyirmi doqquz yaşı vardı, eləbil əlli yaşındaydı. Mənim evimin ağsaqqalı idi, çox gözəl məsləhətlər verirdi. Telmansız mənim üçün çox çətindir. Hara baxıramsa, onu görürəm. Ondan ötrü çox darıxıram...".

Telmanın sevdiyi qız vardımı? Kimdi? Necə bir qız idi? Öyrəndik ki, anası o qızın kim olduğunu bilməyib. Amma varlığını öyrənib. Hər dəfə II Fəxri xiyabana gedəndə oğlunun məzarı üstündə bir dəstə qızılgül görüb. Al-qırmızı qızılgüllərə sığal çəkən şəhid anası onlardan oğlunun nakam sevgisini xəbər alıb...

***Zöhrə FƏRƏCOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

Azərbaycan.-2025.- 28 sentyabr (№208).- S.10.